

Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzabəziyyətlidir.

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

25 iyun 2020-ci il
Cümə axşamı

№ 21 (3486)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## RUSİYA STRATEJİ TƏRƏFDAŞIMIZDIR

İyunun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Dövlətimizin başçısı Azərbaycanda karantin tədbirlərinin uzadılması ilə əlaqədar Moskvada Qələbənin 75 illiyinə həsr olunmuş hərbi paradda əvvəlcədən planlaşdırılmış iştirakının mümkün olmadığını təəssüf hissi ilə bildirib və qeyd edib ki, ölkəmiz bu tədbirdə Müdafiə naziri və Azərbaycan Ordusunun 75 nəfər hərbi qulluqçusu ilə təmsil olunacaqdır.

Vladimir Putin vəziyyətə anlayışla yanaşdığını qeyd edərək, telefon zənginə görə təşəkkürünü bildirib.

Dövlət başçıları Rusiya-Azərbaycan sərhəddində yaranmış vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

Prezident İlham Əliyev bildirib ki, onun Rusiya Prezidenti ilə bu il mayın 18-dəki telefon danışığından ötən dövr ərzində Samur keçid məntəqəsindən 700-ə yaxın, bütövlükdə bir ay ərzində isə quru və hava yolları ilə 1000-ə yaxın Azərbaycan vətəndaşı Rusiyadan ölkəmizə gətirilib.

Prezidentlər müvafiq dövlət strukturlarına sərhəddə vəziyyətin tənzimlənməsi ilə əlaqədar əlavə tapşırıqların verilməsi barədə razılaşıblar.

# PREZİDENT AÇILIŞDA İŞTİRAK EDİB

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 22-də Bakının Xətai rayonu, Neapol küçəsində yeni yerüstü piyada keçidinin açılışında iştirak edib.



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov piyada keçidinin texniki göstəriciləri barədə Prezident İlham Əliyevə məlumat verib.

Bildirilib ki, yüksək zövq, tam fərqli görkəm, müasir texnologiyalar əsasında inşa olunan bu keçid paytaxtda yeni piyada keçidlərinin tikintisi ilə bağlı aparılan kompleks işlərin tərkib hissəsidir.

Prezident İlham Əliyevə, həmçinin məlumat verilib ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7-ci kilometrliyində, Bakı Beynəlxalq Avtovağzal Kompleksi ilə metronun "Avtovağzal" stansiyası arasındakı ərazidə əsas yolun hərəkət hissəsi genişləndirilərək zolaqların sayı 4-ə çatdırılıb. Bakı şəhərinin şimal girişində xüsusən günün pik saatlarında yaşanan tıxacların aradan qaldırılması məqsədilə icra edilən bu layihə çərçivəsində "20 Yanvar" dairəsində yolun hərəkət hissəsi 10 metrə qədər, magistral yol Bakı Beynəlxalq Avtovağzal Kompleksinin qarşısından keçən hissədə isə hər iki istiqamət üzrə 1 hərəkət zolağı enində genişləndirilib.



Azərbaycan Prezidenti İlham Əliyev görülən işlərlə bağlı tapşırıq və göstərişlərini verib.

***Dünya Bankının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunan vitse-prezidenti xanım Anna Byerde, Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus və bankın digər nümayəndələri arasında videokonfrans keçirilib.***

***Azərbaycan Prezidenti İlham Əliyev iyunun 18-də qardaş Türkiyə Respublikasının nümayəndəsi cənab Volkan Bozkırın Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının Sədri vəzifəsinə seçilməsi münasibətilə Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib.***

***Dövlətimizin başçısı iyunun 18-də Birləşmiş Millətlər Təşkilatının yaranmasının 75 illik yubileyi ərəfəsində Baş Assambleyanın Sədri vəzifəsinə seçilməsi münasibətilə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının yeni seçilmiş Sədri Zati-aliləri cənab Volkan Bozkıra təbrik məktubu göndərib.***

***Ölkəmizin rəhbəri iyunun 19-da "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 12 iyun tarixli 128-VIQ nömrəli Qanununun tətbiqi barədə sərəncam imzalayıb.***

***İyunun 23-də Azərbaycan Prezidenti İlham Əliyev dövlət qulluqçularının mükafatlandırılması haqqında sərəncam imzalayıb.***

## ŞƏRQ TƏRƏFDAŞLIĞI ÖLKƏLƏRİNİN SAMMİTİ KEÇİRİLİB

İyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında Sammiti keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitini giriş sözü ilə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel açıb.

Sonra Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen çıxış edib.

Daha sonra Avropa İttifaqına üzv dövlətlərin və Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçıları çıxış ediblər.

## BMT-dən ERMƏNİSTANA ZƏRBƏ...

Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı qərargahında Azərbaycanın ərazilərini işğal edən təcavüzkar Ermənistanın beynəlxalq hüquqi öhdəlikləri barədə geniş və əhatəli məruzə dərc edilib. **Əsas müəllifi professor, kral vəkili Malkolm Şou (Böyük Britaniya) olan bu məruzə bir neçə müddəadan ibarətdir.**

Məruzənin əsas müddəaları aşağıdakılardır:

- Ermənistanın nizami silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ regionunu və ona bitişik yeddi rayonun işğal olunmasında bilavasitə iştirak ediblər.
- Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində oyuncaq rejim qurub və onun mövcudluğunu müxtəlif üsullarla, o cümlədən, həmin ərazilərdə hərbi iştirakını saxlamaq yolu ilə dəstəkləməkdə davam edir. Ermənistan oyuncaq rejim pərdəsi arxasında özünün təcavüzkar rolunu gizlətməyə çalışaraq, beynəlxalq hüququn bu pozuntularına görə məsuliyyəti öz üzərindən götürə bilməz.
- Beynəlxalq hüquq güc tətbiq edilməklə ərazilər əldə olunmasını qadağan edir. Buna görə də Ermənistan və ya onun oyuncaq rejimi tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində görülən hər hansı tədbir bu ərazilərin əvvəlki hüquqi statusunu dəyişdirə bilməz və beləliklə həmin ərazilər beynəlxalq hüquqa görə Azərbaycan əraziləri olaraq qalır.

Məruzədə təcavüzkar siyasətlə bağlı digər məqamlar da yer alıb. **Ermənistanın işğalçı siyasətini ifşa edən məruzə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi statusu ilə nəşr edilib və yayılıb.** Bu sənəddən bir neçə gün əvvəl Avropa Parlamentinin Qarabağla bağlı məlum qərarı, indi də bu məruzə. Dalbadal sözügedən açıqlamalar diplomatik baxımdan Ermənistanın işğalçılıq siyasətinə vurulan zərbələrdir.

## Nümunəyə çevrilən fəaliyyət

Hazırda dünyanın bütün ölkələri öz səylərini koronavirusla mübarizəyə və profilaktika tədbirlərinə yönəldib. Buna baxmayaraq, son statistikaya görə bu infeksiyaya yoluxanların sayı 9 milyona yaxınlaşıb. Virus xüsusən ABŞ və inkişaf etmiş Avropa ölkələrində daha ciddi fəsadlara, xeyli sayda yoluxma və insan itkisinə səbəb olub.

Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən həyata keçirilən zəruri qabaqlayıcı, çevik və sistemli preventiv tədbirlərin, atılan profilaktik və təxirəsalınmaz addımların nəticəsində virusa kütləvi yoluxmanın qarşısı alınır. Bununla bir daha təsdiq olundu ki, vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların təhlükəsizliyi və hazırkı qlobal problemin təsirindən müdafiəsi respublikamız üçün ən vacib və prioritet məsələdir.

Beynəlxalq təşkilatlar da respublikamızda virusa qarşı atılan qabaqlayıcı addımları digər dövlətlərə nümunə olaraq görürlər.

# Ölkəmiz təcrübəsini bölüşür

Bu gün dünyada 150-dən çox ölkə qlobal böhrana qarşı yardım üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib. Onların daxili maliyyə resursları lazım olan qabaqlayıcı tədbirlərin reallaşdırılmasına imkan vermir. Sevindirici haldır ki, bu siyahıda Azərbaycanın adı yoxdur. Çünki ölkəmiz öz gücü ilə bu bəlaya qarşı mübarizə aparmaqdadır.

Ümumiyyətlə, Azərbaycan nəinki milli səviyyədə koronavirusla mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda regional və qlobal miqyasda pandemiyaya qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verir, təcrübəsini bölüşür.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın koronavirusa qarşı mübarizə sahəsində təcrübəsi ən mütərəqqi və ən insansevər təcrübədir. Azərbaycan Prezidenti isə region və bütövlükdə, dünya üçün çox faydalı olan təşəbbüslər irəli sürür. Ümumdünya Səhiyyə Təşkilatı isə bir çox ölkələrə Azərbaycanın təcrübəsindən yararlanmağı tövsiyə edir. Bununla yanaşı, Azərbaycan köməyə ehtiyacı olan dövlətlərə yardımlar edib və xeyirxahlıq missiyasını davam etdirməkdədir.

Dövlət başçımızın təşəbbüsü ilə videokonfrans formatında keçirilən beynəlxalq təşkilatların zirvə görüşlərinin və digər görüşlərin mövzusunun da koronavirusa qarşı mübarizəyə həsr olunması bir daha təsdiq etdi ki, Azərbaycan bu istiqamətdə dünyanı birləşdirir, təcrübəsini istənilən dövlətlə bölüşür. Bununla da ölkəmiz dünyaya nümayiş etdirir ki, sözü ilə əməli vəhdət təşkil edən etibarlı tərəfdaşdır. Azərbaycan pandemiyaya qarşı mübarizədə köməyə ehtiyacı olan dövlətlərə yardımlar edir.

# Azərbaycan hərbçiləri Moskvada qələbə paradında



***İyunun 24-də Rusiya paytaxtı Moskvada alman faşizmi üzərində Qələbənin 75 illiyinə həsr olunmuş hərbi parad keçirilib.***

***Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqunun dəvəti ilə Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov hərbi paradda iştirak edib.***

***Ölkəmiz Qızıl meydanda Azərbaycan Ordusunun 75 hərbi qulluqçusundan ibarət heyətlə təmsil olunub.***

# SAYIQ XİDMƏT, ETİBARLI MÜHAFİZƏ

**İyun ayının 17-də metronun Koroğlu stnasiyasının yaxınlığındakı körpüdə xidmət apararkən yaralı şəxsi xəstəxanaya çatdıran polis serjantı Ayxan Əlizadə, elə həmin gün rayon ərazisində bıçaq yarası alan daha bir nəfərə köməklik göstərərək həyatını xilas edən polis serjantları Məhəmməd Əsgərov, Ruslan Mahmarzayev, axşam saatlarında bir qadına qarşı zor tətbiq edərək əl çantasını almaq istəyən şəxsi zərərləşdirərək aidiyyatı üzrə təhvil verən taqım komandiri, polis kapitanı Akif Yadigarov, polis serjantı Əziz Qurbanov DİN BMİ Nizami Rayon Mühafizə İdarəsinin əməkdaşlarıdırlar. Bu siyahını uzatmaq olar…**

Etibar olunanı göz bəbəyi kimi qoruyur, mühafizə etmək anlayışına əməli işləri ilə elə rəng qatırlar ki, mühafizə deyiləndə də ilk yada düşən onlar olur. Görülən işlərin, aparılan təbliğatın nəticəsidir ki, vətəndaş evini, əmlakını qorumaq üçün yollar aramır və ilk üz tutduğu ünvan polis olur. O, bilir ki, etimadı doğrultmaq prinsipi ilə xidmət aparan həmkarlarımız etibarlı da mühafizə edəcəklər.

"Bu gün Nizami Rayon Mühafizə İdarəsinin əməkdaşlarının cinayətkarlıqla qətiyyətli mübarizəsi də ötən illər ərzində qazanılmış təcrübənin nəticəsidir. Həvalə edilmiş vəzifənin təkcə mühafizə etməklə məhdudlaşmadığını onlar yaxşı bilirlər. Sıramıza qəbul edilən gənc əməkdaşlara vətəndaş-polis münasibətlərində etik-davranış qaydalarına uyğun şəkildə davranmaları tövsiyə olunur. Çünki vətəndaşın polisə, asayiş keşikçisinə rəğbəti də, səmimi münasibəti də xoş ünsiyyətdən sonra formalaşır. Məhz bununçün də xidmətimiz vətəndaş məmunluğuna söykənir",- deyən İdarə rəisi, polis polkovniki Elşən Camalov bildirdi ki, Nizami paytaxtın ən böyük rayonlarından biridir və mühafizənin təşkili işi təbii ki, xüsusi önəm kəsb edir. Son zamanlar burada mühüm sosial, strateji obyektlər, çoxlu sayda fərdi yaşayış evləri, mənzillər mühafizəyə cəlb olunub. Dövlət və özəl mülkiyyətə məxsus obyektlərin etibarlı mühafizəsi təmin edilir, xidməti post və marşrutlarda cinayətkarlığa, ictimai qaydanı pozanlara qarşı ciddi mübarizə aparılır. Oğurluqların qarşısının alınmasımnda mühüm amillərdən olan mühafizə-siqnal qurğularının tətbiqi sahəsində ərazi polis orqanları ilə əlaqəli fəaliyyət genişləndirilib ki, bu da nəticədə obyektlərin, o cümlədən mənzillərin mühafizəsində ortaya çıxan problemləri vaxtında aradan qaldırılmasında, cinayət etmiş etmiş şəxslərin tutulmasında xüsusi effekt verir.

Keçən dövr ərzində İdarə tərəfindən hüquqi və fiziki şəxslərin qanuni mənafelərinin və mülkiyyətinin hüquqazidd əməllərdən qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, bütövlükdə ictimai asayişin təmini üzrə qanunla müəyyən edilmiş vəzifələr layiqincə yerinə yetirilib.

İdarə tərəfindən 408 obyekt və 413 mənzil mühafizəyə cəlb olunub. Müvafiq dövr ərzində əməkdaşlar post və marşrutlarda ictimai qaydanı pozanlara və cinayətkarlığa qarşı mübarizənin aparılmasını diqqət mərkəzində saxlamış, mühafizə olunan obyektlərdən 15 oğurluq faktının qarşısını alarkən 4, axtarışda olan 1, digər cinayət törətdiklərinə görə 3, ictimai qaydanı pozan 19 nəfər saxlanılaraq ərazi polis orqanlarına təhvil verilmişdir. Narkotiklə əlaqəli iki faktın üstü də onlar tərəfindən açılmışdır.




Kadr məsələsinə gəlincə, İdarə rəisi bildirdi ki, xidmətə namizədlər seçilərkən onların mənəvi-psixoloji keyfiyyətlərinə, fiziki hazırlığına xüsusi diqqət yetirilir. Əməkdaşların DİN-in orqan və hissələri, həmçinin hüquq mühafizə orqanları arasında təşkil edilən idman yarışlarında şəxsi və komanda üzrə fərqlənməsi ondan xəbər verir ki, xidmətin təşkilində fiziki hazırlığa xüsusi önəm verilir.

***Hafiz Təmirov,***
***polis polkovnik-leytenantı***

# ORDUN VARSA, YURDUN VAR...





**Geostrateji mövqeyinə görə böyük ölkələrin maraqlarının kəsişdiyi Azərbaycanda Demokratik Respublikanın yarandığı gündən dövlətçiliyin mühüm atributu sayılan nizami ordu quruculuğu istiqamətində addımlar atıldı. 1918-ci il mayın 28-də qəbul edilmiş "İstiqlal bəyannaməsi"ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Çünki müstəqil ordusu olmayan dövlətin milli dövlətçiliyi həmişə yadellilərin təhlükəsi altında yaşamağa məhkumdur.**

Beləliklə, bir ay sonra-26 iyun 1918-ci ildə Gəncədə fəaliyyət göstərən Milli Şura Azərbaycan Milli Ordusunun yaranması haqqında qərar qəbul etdi və 25 min nəfərlik ordu yaratmaq vəzifəsi irəli sürüldü. Dövlət büdcəsinin 24 faizi hərbi məqsədlərə yönəldilirdi. Avqustun 1-də isə Hərbi Nazirlik təsis olundu.

Azərbaycanın ilk müdafiə naziri Xosrov bəy Sultanovdur. Sonra onu general Səməd bəy Mehmandarov əvəzləyib. General-leytenant Əlağa Şıxlinski isə nazir müavini təyin edilib. Qısa müddətdə Milli Ordu Türkiyə dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə paytaxtı və ətraf qəzaları erməni-bolşevik işğalından xilas edib.

SSRİ dövründə azərbaycanlıların hərbin sirlərinə yiyələnməsinə müxtəlif maneələr yaradılırdı. Azərbaycandan orduya xidmətə çağırılan gənclər bilərəkdən inşaat batalyonlarına göndərilirdilər. II Dünya müharibəsindən sonrakı dövrdə də azərbaycanlılara qarşı çar Rusiyasındakı soyuq münasibət davam etdirilirdi. Bu proses ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinə qədər davam etdi. 1967-ci ildə Azərbaycan təhlükəsizlik orqanlarına rəhbər təyin olunan ulu öndər hansısa bir şəkildə ölkənin ordu potensialını qaldırmağın vacibliyini bilirdi. Onun gərgin əməyi və səyi nəticəsində 1973-cü ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı.

Güclü hərb ənənəsi olsa da ikinci dəfə müstəqillik qazandıqdan sonra ölkəmiz bu sahədə ciddi böhranla üzləşdi. Nizami orduya malik olmayan Azərbaycanın qarşısında duran əsas iş Qarabağ uğrunda gedən döyüşlərdə vəziyyəti nəzarət altına almaq idi ki, bu da çox çətinliklə həyata keçirilirdi. Peşəkar ordu quruculuğunun əsası isə 1993-cü ilin sonlarında qoyuldu. Məhz həmin vaxtdan ordu quruculuğuna elmi prinsiplərlə yanaşıldı, silahlı qüvvələr pərakəndəlikdən xilas oldu, siyasiləşməyə son qoyuldu. Ümummilli lider Heydər Əliyev hakimiyyəti dövründə Prezident və Ali Baş Komandan kimi ordunun qüdrətli olmasına diqqət yönəltdi.

Heydər Əliyevin 22 may 1998-ci il sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Əsası ulu öndər tərəfindən qoyulanAzərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Azərbaycan ordusu hər an düşmən işğalında olan ərazilərimizi azad etmək qüdrətindədir.

Azərbaycan Respublikası düşmən tapdağı altında qalan ərazilərinin işğaldan azad olunması üçün hər an müharibəyə başlaya bilər. Bunu dəfələrlə Ali Baş Komandan da bəyan edib. Dövlət başçısı Azərbaycanın məsələsinin diplomatik və siyasi çərçivədə həllində maraqlı olan tərəf olduğunu, ancaq, eyni zamanda, bütün başqa variantlara da hazır olduğunu bildirib. ***"Biz heç vaxt torpaqlarımızın itirilməsi ilə barışmayacağıq. Siyasi, diplomatik, iqtisadi, lazım gəlsə, hərbi yolla məsələnin həllinə nail olacağıq",-deyən Ali Baş Komandan qəti və dəyişməz mövqeyini dəfələrlə nümayiş etdirib.***

***Aytəkin Nəcəfova,***
***polis polkovnik-leytenantı***

# Sədaqətlə xidmət edirlər

**"Etdiyin yaxşılıqlar kitab kimidir, vədəsi yetişəndə oxunacaq",-deyib atalarımız. Yaşadığımız bu çətin, həssas günlərdə Azərbaycan Polisinin fədakar xidməti də hələ uzun illər yaddaşlarda qalacaq, cild-cild kitablara çevrilib sevilə-sevilə oxunacaq.**

Çünki öz həyatını riskə atıb həyat qurtarmaq əsl qəhrəmanlıqdır. Polis keşiyində mətin dayanır, ona olan inam və etibarın sarsılmaması üçün səylə çalışır. Xalqın güvənc yeri olan daxili işlər orqanları bu inam və etibarı 100 ildən çox xidməti fəaliyyəti dövründə qanı, zəhməti, alın təri hesabına qazanıb. Bu gün də o, köməyə ehtiyacı olan insanların imdadına yetişərək içdiyi anda və adına sadiqliyini nümayiş etdirir...

Bizə ünvanlanan məktublarda "polis məni ölümdən xilas etdi", "polis məni vaxtında xəstəxanaya çatdırdı" kimi cümlələri oxuduqca ürəyimizdən keçən ilk fikir bu olub: "Bu polisin vəzifəsi, həm də vətəndaşlıq borcudur. O, vətəndaşa təhlükədən daha yaxın olmalıdır..."

Bu günlərdə başıma gələn hadisədən sonra polisin xilaskar olduğuna şübhəm qalmadı.

İsti havada çox gəzdiyim üçün halsızlaşmışdım. Sabir parkında kölgəli bir yer tapıb skamyada oturdum. Hardan gördülər, necə hiss etdilər onu bilmədim. Xidmətdə olan polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları mənə yaxınlaşdılar. Sizə necə kömək edək deyəndə gülümsədim. "Yaxındamı olursunuz, yemək yemisinizmi, "şəkəriniz" yoxdur ki, ürəyinizdən şikayətiniz və s. Bütün bu suallar ilkin tibbi yardım göstərmək üçün verilirdi." Mənə su gətirdilər. Yavaş-yavaş özümə gəldim. Göstərdikləri qayğıya görə təşəkkürümü bildirdim. İstidə, günün altında səhərdən axşama kimi ayaqüstündə xidmət etməyin çətin olub-olmadığı barədə sualıma cavabları belə oldu: "Çətin olsa da şərəflidir. Vətənin, vətəndaşların təhlükəsizliyinin keşiyində durmaq həm görəvimiz, həm də insanlıq borcumuzdur. Və bu bizim peşə olaraq öz seçimimizdir. Vətəndaşlarımızın məmnunluğu elə bizim də sevincimizdir." Qadın əməkdaşın fikirləri isə diqqətimi daha çox cəlb etdi. "Çoxları bu peşənin kişiyə məxsus olduğunu düşünür. Amma unudurlar ki, kişilərlə çiyin-çiyinə düşmənlərə qarşı mübarizə aparan Azərbaycan qadınları olub. Qarabağ döyüşlərində də silaha sarılıb düşmənlə savaşan, şəhid olan cəsur xanımların adı qəhrəmanlıq tariximizdə əbədi qalacaq".




Düzü, qadın həmkarımız çox mətləblərə toxundu, tarixdən misallar, faktlar gətirdi. Mən də "ən uzun yaddaşdan qısa bir qeyd yaxşıdı",-deyib onun söylədiklərini diktafonun yaddaşına köçürdüm.

Söhbətimiz o qədər səmimi və şirin alınmışdı ki, adlarını soruşmağı belə unutmuşdum. Sağollaşanda özümü təqdim etdim. Polis serjantı Abbas Vəliyev, polis kiçik serjantı Nigar Zeynallı, müddətdən artıq xidmət edən hərbi qulluqçular çavuş Orxan Mirzəyev və əsgər Nurlan İsmayılov gülümsəyib "onda "Mübariz keşikdə"nin növbəti sayını səbrsizliklə gözləyəcəyik",-dedilər.

***Teymur Əlizadə,***
***polis kapitanı***

# Dövlət dili normalarının pozulmasına görə KİV cərimələnəcək

Prezident İlham Əliyev Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanununu imzalayıb. Bununla Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 116.1-ci maddəsinə 533-1-ci maddə əlavə edilib. Bu maddə kütləvi informasiya vasitələrində (KİV) və reklam daşıyıcılarında dövlət dili normalarının pozulması hallarını nəzərdə tutur. Belə ki, kütləvi informasiya vasitələrində və reklam daşıyıcılarında dövlət dili normalarının pozulmasına görə fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə, hüquqi şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə ediləcək.

# *"BİZ BİRLİKDƏ GÜCLÜYÜK!"* ŞÜARI HƏMRƏYLİYƏ ÇAĞIRIŞDIR

**Azərbaycan COVID-19 pandemiyası ilə bağlı beynəlxalq ictimaiyyətdən kömək istəməyən, ancaq xarici ölkələrə bu istiqamətdə yardımını əsirgəməyən dövlətdir. Beynəlxalq Səhiyyə Təşkilatı tərəfindən pandemiya vəziyyəti elan olunduğu gündən indiyədək respublikamızda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması yönündə effektiv tədbirlər həyata keçirilir.**



Respublika Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə ölkəmizin ərazisində xüsusi karantin rejimi elan olunub. Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılaraq, pandemiya əleyhinə karantin tədbirlərinin həyata keçirilməsinə ümumi rəhbərlik edir, bu işdə dövlət qurumlarının fəaliyyətini əlaqələndirir. Dövlət başçısının rəhbərliyi altında görülmüş çoxşaxəli qabaqlayıcı profilaktik tədbirlər nəticəsində ölkəmiz bu bəşəri bəladan az itkilərlə çıxmağa müvəffəq olur, epidemioloji vəziyyət nəzarət altındadır. Respublikamızın sərhədləri müvəqqəti olaraq bağlıdır, buna baxmayaraq, xarici ölkələrdə köməksiz vəziyyətdə qalan soydaşlarımız mərhələli şəkildə Vətənə qaytarılır. Ölkə daxilində vətəndaşların bölgələrarası sərbəst hərəkəti məhdudlaşdırılıb.



Pandemiya ilə əlaqədar işləməyən vətəndaşlarımıza, aztaminatlı ailələrə dövlətimiz maddi yardım göstərir. Müasir xəstəxana kompleksləri, eləcə də modul tipli xəstəxanalar COVID-19 diaqnozu qoyulan xəstələrin ixtiyarına verilib. Ölkəmizdə tibbi maska, digər qoruyucu vasitələr, dezinfeksiyaedici maddələr istehsal edən müəssisələrin açılışı olub. Yüz minlərlə insan xəstəliyə yoluxmanı müəyyən etmək üçün tibbi testdən keçib. Bundan əlavə, Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb. Karantin rejiminin təmin olunmasında texnoloji innovasiyalar da tətbiq edilir. Əhali arasında koronavirus infeksiyası ilə bağlı geniş maarifləndirmə işi aparılır.

Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən pandemiya şəraitində irəli sürülən "Biz birlikdə güclüyük!" şüarı üzləşdiyimiz təhlükə qarşısında ictimai həmrəyliyə çağırışdır. Güclü dövlət amili və ictimai həmrəyliyə nail olunması pandemiyanın mənfi təsirlərini önləmək və ortadan qaldırmaq baxımından çox əhəmiyyətlidir. Vətəndaşlarımızın böyük əksəriyyəti bu məqamı düzgün dərk edərək, dövlət başçısının sözügedən çağırışını dəstəkləyir, ona ünvanlanan məktublarda belə həssas günlərdə əhaliyə göstərilən dövlət qayğısına görə öz minnətdarlığını bildirir.

Daxili Qoşunların şəxsi heyəti və veteranları üçün də Ali Baş Komandanın "Biz birlikdə güclüyük!" şüarının hazırkı vəziyyətdə böyük ictimai və sosial əhəmiyyəti aydındır. Dövlət başçısının hər bir çağırışı kimi, bu məsələ ilə bağlı xalqımıza müraciətinə də hərbi qulluqçularımız və veteranlarımız öz dəstəklərini bildirirlər.

Artıq bir neçə aydır ki, Daxili Qoşunların hərbi qulluqçuları polis əməkdaşları ilə birgə ölkəmizin paytaxtı və bölgələrində karantin rejimi qaydalarının təmin olunması üzrə layiqincə fəaliyyət göstərir, peşəkarlıq nümayiş etdirirlər.

Daxili Qoşunların veteranları da karantin rejiminə ciddi riayət edir, sosial şəbəkələrdə, dövri mətbuatda, ictimaiyyətin ayrı-ayrı qrupları ilə ünsiyyətlərində bu mövzuda geniş maarifləndirmə aparılmasına öz töhfələrini verirlər. Veteranlarımız tərəfindən Koronavirusla Mübarizəyə Dəstək Fonduna pul vəsaiti də köçürülüb. Bundan əlavə, bir qrup veteranımız karantin dövründə aztəminatlı ailələrə ərzaq yardımı göstərilməsində fəal iştirak edib və hazırda da bu addımlar atılır.



Ehtiyatda olan və pensiya alan veteranlarımız vətəndaşların bankomatların qarşısında cəmləşməsinin qarşısının alınması, sosial məsafə prinsipinə riayət edilməsinin asanlaşdırılması üçün pensiya və veteran müavinətlərinin xüsusi cədvəl, habelə gün ardıcıllığı üzrə ödənilməsinin həyata keçirilməsini də onlara dövlət qayğısının təzahürü kimi qiymətləndirirlər.

Ümumilikdə, Azərbaycan dünyada hökm sürən çətin pandemiya şəraitində iqtisadi itkilərə baxmayaraq, öz daxili və xarici siyasətində insan faktorunu, əhalinin sağlamlığını və sosial rifahını prioritet məsələ kimi önə çəkir.

Cəmiyyət olaraq, pandemiya ilə mübarizədə birlik nümayiş etdirməli, dövlətimizin yanında olmalı, karantin qaydalarının pozulmasına yol verməməli, məsuliyyətsiz davranan soydaşlarımıza ictimai qınağı gücləndirməli, həkimlərimizin, bütövlükdə, tibb işçilərinin zəhmətinə dəyər verməli, ölkəmizin bu infeksiyanın fəsadlarından büdrəməsini, zəifləməsini istəyən düşmən ölkənin varlığını heç vaxt nəzərdən qaçırmamalıyıq.

Milli birlik və ictimai həmrəylik hər bir dövlətin varlığının və sabit inkişafının əsas təməlləridir.

*Yalçın Abbasov*

# Ucuz "ölüm" – narkomaniya



Narkotik vasitələrdən ta qədimdən tibbi məqsədlər üçün istifadə edilməsi barədə məlumatlara yunan, roma, ərəb alim və həkimlərinin əsərlərində rast gəlinir. Xaşxaş qozasından alınan cirədən ağrıları azaltmaq, tiryəkdən hazırlanan dərmanlardan ruhi xəstələri sakitləşdirmək, spazm və sarsıntıları götürmək, pozulmuş əsəb-sinir sistemini bərpa etmək kimi müalicə işlərində istifadə olunurdu.

Günümüzün mənzərəsi heç də ürəkaçan deyil. Bu vasitələr ondan fiziki və psixoloji asılı olan bəzi xəstələrin "eşq"inə çevrilir. Beləcə onlar narkotiksiz yaşaya bilmir, öz talelərini ağ ölümlə qara bəlaya bağlayır, əvvəl istifadəsində xoş hisslərin, sevinc və enerjinin həmin maddələrdə olmasına inanmağa başlayır, lakin aldadıcı təsirin yanlış olduğunu fikirləşmirlər. Bəzən də bu eşqə düşənlər ona əli çatmayanda intihara, cinayətlərə əl atırlar.

Aparılan statistika onu deməyə əsas verir ki, cinayətlərin 80 faizindən çoxu narkomanlar tərəfindən törədilir.

Təəssüflər olsun ki, bu gün narkotik maddələrin aludəçilərinin çoxu gənc nəslin nümayəndələridir. Bir müddət keçdikdən sonra bu bəlanın pəncəsindən yaxa qurtarmağa çalışanlar olsa da, atılan addım hər zaman müsbət nəticə vermir. Çünki narkotik maddələrdən imtina etmək üçün insan güclü iradəyə malik olmalıdır. Narkomaniya birbaşa intihar halı olmasa da, insanları tədricən məhv edir, ölümə sürükləyir.

DİO tərəfindən demək olar ki, hər gün narkotiklə bağlı 10-larla faktın üstü açılır. Ən ağrılı məqam isə bu bəlanın qarşısı alınmaz hala gəlməsidir.

Polis əməkdaşları məktəblərdə "narkomaniyaya yox deyək" şüarı altında şagirdlərlə mütəmadi olaraq görüşlər keçirir, maarifləndirici söhbətlər aparır, narkotikin insan sağlamlığına vurduğu ziyandan söhbət açır, onları bu yola düşməməyə çağırırlar.



Yeri gəlmişkən, BMT Baş Assambleyası 1987-ci ildə narkomaniya dair problemlərin daim ictimaiyyətin diqqətində saxlanması məqsədi ilə iyun ayının 26-nı Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü elan edib.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

**Zamanın idarə edilməsi bacarığı son 10 ildə ən aktual mövzulardandır. Hər bir sahənin sürətli rejimə keçməsi, bir toxunuşla minlərlə funksiyanın anidən yerinə yetirilməsi insanları zaman anlamını dəyərləndirməyə vadar etdi.**

# ZAMANIN İDARƏ EDİLMƏSİ

Zamanın idarə edilməsi üçün ən vacib məsələlərdən biri günü əvvəlcədən planlaşdırmaqdır. Bunun üçün yatmazdan əvvəl, ertəsi gün tapşırıq siyahısının yazılmasına 5 dəqiqə vaxt ayırın. Bu peşəkar və şəxsi məqsədlərinizə doğru irəliləməyinizə kömək edəcək. Nəticədə nə edəcəyinizi bilməklə işə başlamaq daha asan olacaq. Növbəti vəzifəni seçməyə isə vaxt itirmək lazım gəlməyəcək.

Günü ən vacib və çətin gələn işlə başlayın. Mark Tven çətin işi qurbağa adlandırırdı:-"Əgər iş qurbağanı yeməkdirsə, səhər bu işi görmək yaxşıdır. Əgər işiniz iki qurbağa yeməkdirsə, ən böyüyündən başlayın". Bu ən yaxşı vaxt idarəetmə üsullarından biridir. Əksəriyyətimiz çətin gələn işləri günün "son"una salırıq və bütün günü onun yükü altında əzilirik. İlk olaraq bu problemi həll etdikdən sonra günün ən əvvəlindən irəliləyiş hissi və motivasiya alırıq. Günü qabiliyyət hissi ilə digər işlərə həvəslə davam edirik.

Eyzenhauerin cədvəli ilə gün ərzində görəcəyiniz işləri vaciblik kateqoriyasına görə nizamlayın. Görülən işlər siyahısının prioritetliyini düşünmədən yazın. İndi hər bir işi dörd kateqoriyadan birinə təyin etmək qalır:

1. vacib və təcili ( əvvəlcə bunu edin);
2. vacib, lakin təcili deyil (ikinci mərhələnin məsələləri);
3. təcili, lakin vacib deyil (mümkünsə onları həvalə edin);
4. təcili deyil və vacib deyil ( onları sonra edin);

Diqqət yayımına nəzarət edəcəyik. Zaman itkisinin çoxu fokuslana bilməməkdəndir. Məsələn, smartfonunuzdakı bildirişləri yoxlamaqla bir dəfə diqqətinizi yayındırırsınızsa, əvvəl yerinə yetirdiyiniz tapşırıq üzərində yenidən cəmləşmək üçün orta hesabla 20 dəqiqədən çox vaxt tələb olunur. Kaliforniya Universitetinin araşdırması belə deyir.



Fikrinizin yayınmaması və işinizi vaxtında yerinə yetirmək üçün:

1. Telefon, kompüter və planşetdəki bütün bildirişləri söndürün;
2. İnternet birbaşa iş üçün lazım deyilsə Wi-Fi-ı da söndürün;
3. Telefondan mümkün qədər uzaq durun;
4. Digər insanların sizi narahat etməməsi üçün qulaqcıqdan istifadə edin;
5. Sosial şəbəkə hesablarından çıxın və işləyərkən onları görməyin. Əgər bu zəruridirsə, bunun üçün xüsusi vaxt ayırın.
6. Otaq tempraturunu sərin (22 dərəcədən yuxarı olmamalı) edin.

Başqasına "hə" dediyiniz zaman özünüzə "yox" demədiyinizdən əmin olun.

"Həmişə bəli deyin" prinsipi ilə yaşamaq "hədəflərinizi unutma" prinsipi ilə yaşamaq deməkdir. Bu sadədir: yalnız məqsədə yaxınlaşdıran əməlləri etməlisiniz. Zaman məhdud bir qaynaq olduğundan nədənsə imtina etməlisən.

Sizdən asılı olmayan zaman boşluqlarını özünüzə xərcləyin.

- İxtisasınıza dair kitab və ya məqalə oxuyun;
- Kompüterinizdəki qovluqların təşkili ilə məşğul olun, təqvim və digər kiçik onlayn işləri sıralayın;
- Gün / həftə / ay üçün plan hazırlayın;
- Audio kitablara qulaq asın;
- Xarici dildə sözləri öyrənin;
- Hər gün 15-20 dəqiqə gəzin.

Çoxtərəfli olmaq konsentrasiyanı pozur. Beyin bir anda bir şeyə fokuslanmaq üçün hazırlanmamışdır. Tapşırıqlar arasında tez-tez keçidlər etmək işimizə və məhsuldarlığımıza dağıdıcı təsir göstərə bilər. Bu, konsentrasiya və düşünülmüş bir yanaşma tələb edən peşələr üçün xüsusilə doğrudur. Bir işə diqqət etmək vərdişini inkişaf etdirin.

"Vaxtım yoxdur"-deyib durmayın. Uğur və uğursuzluq arasında bir boşluq dayanır ki, onun da adı "mənim vaxtım yoxdur" kəlməsidir.

*Günel İbrahim,*
*Etika Akademiyasının rəhbəri*

# "XƏZRİ" sizi gözləyir!




**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 01 iyun - 15 sentyabr 2020-ci il tarixlərdə mövsüm üzrə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobus gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**01 iyun - 15 sentyabr 2020-ci il**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti :**

**iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135,00 manat | 210,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60,00 manat | |

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən uğurlu əməliyyat tədbirləri nəticəsində 2018-ci il iyulun 3-də Kiyevdəki restoranlardan birində Azərbaycan vətəndaşı Davud Ağayevi "Makarov" markalı tapançadan atəş açmaqla qətlə yetirməkdə şübhəli bilinən şəxs Bakı şəhərində saxlanılıb. Baş İdarə əməkdaşlarının keçirdikləri əməliyyat zamanı Ukrayna Cinayət Məcəlləsinin 115-ci (qəsdən adam öldürmə) maddəsi ilə beynəlxaq axtarışda olan paytaxt sakini Yasin Həsənov tutulub.

Araşdırma zamanı məlum olub ki, Yasin Həsənovun qətlə yetirdiyi şəxslə əvvəlcədən ədavəti olub. Belə ki, 2013-cü ildə Davud Ağayev Yasin Həsənova Kiyev şəhərində odlu silahdan atəş açaraq onu yaraladığından sonuncu intiqam almaq məqsədi ilə bir neçə il sonra qeyd edilən hadisəni törədib.

Faktla bağlı Baş İdarədə Yasin Həsənov ətrafında əməliyyat-axtarış tədbirləri davam etdirilir.

*****

***Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən əllərdə qanunsuz saxlanılan odlu silah-sursatın aşkar edilməsi istiqamətində daha bir əməliyyat tədbiri həyata keçirilib.***

***Baş İdarəyə Edqar adlı şəxsin Binəqədi rayonu Biləcəri qəsəbəsində yaşadığı evdə qanunsuz olaraq silah gizlətməsi barədə əməliyyat məlumatı daxil olub. Keçirilən təxirəsalınmaz tədbir nəticəsində həmin şəxs, paytaxt sakini Edqar Abdullayev Nəsimi rayonu ərazisində tutulub. Onun Biləcəri qəsəbəsində qeydiyyatda olduğu evə baxış keçirilən zaman 1 ədəd "WALTER" markalı tapança, 1 ədəd daraq və 7 ədəd patron aşkar olunaraq götürülüb.***

***Faktla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Edqar Abdullayevə barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib, istintaq tədbirləri davam etdirilir.***

*****

Abşeron RPİ-yə müraciət edən Bakı şəhər sakini X.Muradov iyunun 17-də saat 1 radələrində Mehdiabad qəsbə qəbristanlığının ərazisində 3 nəfərin onu döyərək 500 manat pulunu və şəxsiyyət vəsiqəsini aldığını bildirmişdir.

Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Mehdiabad qəsəbə sakinləri, əvvəllər məhkum olunmuş E.Məmmədov, N.Cəfərov və F.Nəzərov müəyyən edilərək polis əməkdaşları tərəfindən saxlanılmışlar.

Araşdırma aparılır.

# Polis izə düşmüşdü

**Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən növbəti əməliyyat tədbiri nəticəsində külli miqdarda narkotik vasitələrin və psixotrop maddələrin ölkə ərazisinə gətirilərək realizə olunmasının qarşısı alınıb.**

Belə ki, Baş İdarə əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında həyata keçirdikləri tədbir nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Sabunçu rayonu Maştağa qəsəbə sakinləri Elşad Nəbiyev və Müşfiq Xalıqov saxlanılıblar. Şəxsi axtarış aparılan zaman M.Xalıqovdan 1 kiloqram 25 qram heroin, 500,171 qram psixotrop maddə metamfetamin, E.Nəbiyevdən isə 50,375 qram heroin aşkar olunaraq götürülüb.

Əməliyyat tədbirlərinin davamı olaraq Baş İdarənin əməkdaşları tərəfindən E.Nəbiyevin Maştağa qəsəbəsində yerləşən evindən 1 kiloqram 80 qram metamfetamin, 5 kiloqram 10 qram qurudulmuş marixuana və 3 kiloqram 75 qram heroin aşkar olunub. Beləliklə, sonuncu əməliyyat nəticəsində polis tərəfindən 10 kiloqram 740 qram narkotik vasitə və psixotrop maddənin qanunsuz dövriyyəyə buraxılmasının qarşısı alınıb.



Araşdırma zamanı müəyyən olunub ki, E.Nəbiyev və M.Xalıqov həlalik adı istintaqa məlum olmayan "Şəhram" adlı İran vətəndaşının tapşırığı ilə qanunsuz yollarla Azərbaycan ərazisinə keçirilən külli miqdarda narkotik vasitə və psixotrop maddəni Bakı şəhərində yaşadıqları evdə gizlədiblər. Onlar narkotik vasitələri İran vətəndaşının deyəcəyi adamlara satandan sonra pulun bir hissəsini geri göndərəcəklərmiş.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb.

**Elektron qolbağ - məhkum və ya şübhəlini davamlı izləmək üçün cihazdır. Nəzarət edilən şəxsin harada olduğunu dəqiq bilməyə imkan yaradır.**

Elektron qolbağların müxtəlif növləri olsa da işləmə prinsipi eynidir.



Bu qolbağ 1950-ci illərdə Harvard Universitetinin alimləri tərəfindən icad edilib. İlk dəfə 1983-cü ildə sınaqdan keçirilib. Onun cinayət törətmiş şəxslər üzərində sınaqdan keçirilməsi fikri isə Amerikalı hakim Cek Lovelə məxsusdur.

# Elektron "qandal"

Cinayətkarların elektron monitorinqi fikri ABŞ-da yaranıb. Elektron nəzarət qanunu 1968-ci ildə qəbul edilsə də bu ilk dəfə 1979-cu ildə Nyu Meksikada tətbiq edilib.

Amerika Birləşmiş Ştatları və Qərbi Avropa ölkələrində məhkumlar üçün elektron qolbağlardan 1995-ci ildən bəri istifadə olunur. Bu icad həbsxanalarda məhkumların sayını xeyli azaldıb və nəzarətin effektivliyini artırıb. Məhkumlara taxılan elektron qolbağ onun hərəkət traektoriyasını nəzarətdə saxlayır və ev telefonu vasitəsi ilə polisə ötürür. Beləliklə, onların təkrar cinayət törətməsinin qarşısı alınır.

*Ruslan Vəliyev*

## İyun ayının 17-dən 23-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 196 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 62 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 257, o cümlədən borclu şəxs qismində axtarışda olan 160 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 19 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 19 nəfər ölmüş, 17 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 115 fakt müəyyən edilmişdir.

# MARAQ DÜNYASI

### KORONAVİRUS TESTLƏRİNİ ROBOTLAR APARACAQ

Yaponiyanın tibb robotları hazırlayan "Medicaroid" şirkəti səhiyyə işçilərinin koronavirusa yoluxmasının qarşısını almaq məqsədilə testlərin robotlar tərəfindən aparılmasını təklif edir.

Şirkət tərəfindən təklif olunan sistem bir neçə robotdan istifadə olunmasını nəzərdə tutur. Bu robotlardan biri test keçirilən şəxsdən nümunə götürəcək, ikinci robot həmin nümunəni sınaq qurğusuna yerləşdirəcək. Üçüncü robot isə reagentləri idarə edəcək.

Sistemin əsas aparıcı elementi həkimlərə xəstədən müəyyən məsafədə qalmağa şərait yaradan nümunələri götürəcək robot olacaq.

Testlərin aparılması üçün xəstəxanalar və sınaq meydançaları təşkil ediləcək.

"Medicaroid" şirkəti tibbi robotlar hazırlayan "Kawasaki Heavy Industries" və diaqnostika alətləri istehsal edən "Sysmex" şirkətləri tərəfindən yaradılmış birgə müəssisədir.

### SERBİYALI HƏKİMLƏRİN MƏSLƏHƏTİ

İnsanlarda boğulma yaradan koronavirus zamanı xəstələrin daha yaxşı nəfəs ala bilmələri üçün yatmaq pozası aşkarlanıb.

Serbiyalı həkimlər koronavirus və ya hər hansı səbəbdən boğulma yaşayan xəstələrə qarnıüstə yatmağı tövsiyə edirlər. Həkimlər bildiriblər ki, belə yatmaq və ya uzanmaq hətta süni nəfəs aparatını əvəz edə bilər. Bu cür yatanda oksigenin ağciyərlərə daxil olması asanlaşır. Serbiyada həkimlər artıq nəfəs problemi yaşayan bütün xəstələrə bunu tətbiq edirlər.

Serbiyalı həkimlər xəstənin qarnı üzərində yatma müddətinin məhdud olmadığını da deyiblər. Xəstə özünü rahat hiss etdiyi müddət ərzində belə yatmaqda davam edə bilər. Hazırda bu metod COVID-19 müalicəsində də geniş istifadə edilir.

### MİKROB ƏLEYHİNƏ PARÇA

Yaponiyanın elektronika sahəsində tanınmış "Murata Manufacturing" və toxuculuq sahəsində fəaliyyət göstərən "Teijin Frontier" şirkətləri birlikdə mikroblara qarşı elektrik enerjisindən istifadə edən parça hazırlayıblar.

Həmin parçadan hazırlanmış istənilən geyimi istifadə edən insan hərəkət zamanı bu materialı ya dartır ya da sıxır. Nəticədə elektrik enerjisi yaranır ki, həmin enerji də kimyəvi maddələrdən və ya üzvi maddələrdən istifadə etmədən mikrobların sayını azaldır. Bu, eyni zamanda, ətraf mühitə də müsbət təsir göstərir.

Həmin şirkətlər "Pieclex" adlanan parçadan istifadə etməklə idman geyimləri, corablar, tibbi maskalar və digər məhsullar istehsal etməyi planlaşdırırlar. Bu məhsulların satışına isə gələn ilin martında başlamaq nəzərdə tutulur. Həmçinin bu materialın virusa qarşı da səmərəli olduğu bildirilir. Hazırda onun koronavirusa qarşı istifadəsinin mümkünlüyü araşdırılır.

Yeni məhsulu yüksək qiymətləndirən "Murata Manufacturing" şirkətinin prezidenti Murata Tsuneo deyib ki, "bu, gələcəyin sərhədsiz imkanlara malik elektrikli parçasıdır".

*Hazırladı: R.Əliyeva*

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
BURAXILIŞA MƏSUL: E.ZAHİDOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.044
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik